DOI: https://doi.org/10.36719/2789-6919/57/57-66

**Kamran Babayev**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0009-8639-5915
babayevk421@gmail.com

# Azərbaycanın enerji təhlükəsizliyi siyasətində Böyük Britaniyanın rolu

## Xülasə

Məqalədə Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətində Böyük Britaniyanın rolu tarixi, siyasi, iqtisadi və institusional aspektlərdə təhlil olunur. Əsaslandırılır ki, Böyük Britaniya ilə münasibətlər Azərbaycanın müstəqillikdən sonrakı xarici siyasətində yalnız diplomatik tanınma faktı ilə məhdudlaşmamış, çox erkən mərhələdən etibarən enerji resurslarının işlənməsi, beynəlxalq kapitalın cəlb edilməsi, ixrac marşrutlarının şaxələndirilməsi və enerji sektorunun geosiyasi təhlükəsizlik alətinə çevrilməsi prosesinə birbaşa təsir göstərmişdir. Xüsusilə BP şirkətinin Azərbaycandakı fəaliyyəti, 1994-cü ildə imzalanmış Azeri-Çıraq-Günəşli sazişi, "Əsrin müqaviləsi"nin yaratdığı yeni geoiqtisadi çərçivə və sonrakı illərdə formalaşan investisiya axınları Azərbaycanın enerji siyasətinin maddi-institusional dayaqlarını möhkəmləndirmişdir. Məqalədə göstərilir ki, Böyük Britaniyanın rolu təkcə neft-qaz sektoruna sərmayə qoyuluşu ilə məhdudlaşmır; bu rol eyni zamanda beynəlxalq legitimliyin artması, texnoloji transfer, enerji diplomatiyası, institusional dialoq və son dövrdə yaşıl enerji keçidi ilə bağlı yeni əməkdaşlıq formatlarını da əhatə edir. Təhlil nəticəsində belə qənaətə gəlinir ki, Böyük Britaniya Azərbaycanın enerji təhlükəsizliyi siyasətində həm ilkin modernləşmə mərhələsinin, həm geoiqtisadi inteqrasiyanın, həm də aşağıkarbonlu transformasiyaya keçidin əsas xarici tərəfdaşlarından biri kimi çıxış etmişdir. Bununla belə, əməkdaşlıq tammiqyaslı strateji ittifaq səviyyəsinə yüksəlmir; o, daha çox seçilmiş maraqlar üzərində qurulan praqmatik və selektiv strateji tərəfdaşlıq modeli kimi xarakterizə olunur.

***Açar sözlər:*** *Azərbaycan, Böyük Britaniya, enerji təhlükəsizliyi, enerji diplomatiyası, BP, xarici investisiya, geoiqtisadiyyat, yaşıl enerji keçidi*

**Kamran Babayev**
Baku State University
PhD student
https://orcid.org/0009-0009-8639-5915
babayevk421@gmail.com

# The Role of Great Britain in Azerbaijan's Energy Security Policy

## Abstract

The article examines the role of Great Britain in Azerbaijan's energy security policy from historical, political, economic and institutional perspectives. It argues that UK-Azerbaijan relations were not limited to diplomatic recognition after independence, but from a very early stage became closely tied to the development of Azerbaijan's energy resources, the attraction of foreign capital, the diversification of export routes and the transformation of the energy sector into an instrument of geopolitical security. Special attention is paid to BP's activity in Azerbaijan, the 1994 Azeri-Chirag-Gunashli production sharing agreement, the geoeconomic framework created by the "Contract of the Century", and the broader investment flows that strengthened the material and institutional foundations of Azerbaijan's energy policy.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

The article demonstrates that Britain's role extends beyond oil and gas investment and also includes international legitimacy, technology transfer, energy diplomacy, institutional dialogue and, in the most recent period, cooperation related to green transition. The study concludes that Great Britain has been one of the main external partners of Azerbaijan both in the initial modernization of the energy sector and in the country's subsequent geoeconomic integration and low-carbon transition. At the same time, this cooperation does not amount to a full strategic alliance; rather, it should be understood as a pragmatic and selective strategic partnership built around overlapping interests.
***Keywords:*** *Azerbaijan, Great Britain, energy security, energy diplomacy, BP, foreign investment, geoeconomics, green energy transition*

## Giriş

Müstəqilliyin ilk illərində Azərbaycanın qarşısında duran strateji prioritet, mövcud təbii resursları milli tərəqqinin və suveren dövlətçilik institutlarının təməl sütununa çevirməkdən ibarət idi. Post-sovet iqtisadi sistemindən ayrılan respublika üçün enerji potensialı sadəcə bir ixrac vasitəsi deyil, eyni zamanda, qlobal arenada siyasi legitimlik, maliyyə dayanıqlığı və milli təhlükəsizliyin qarantı rolunu oynayırdı. Bu kontekstdə, Azərbaycanın enerji təhlükəsizliyi konsepsiyası ənənəvi yanaşmalardan fərqlənir; burada əsas hədəf yalnız təchizatın davamlılığı deyil, resurslar üzərində suveren nəzarətin bərpası və bu imkanların xarici siyasətdə manevr qabiliyyətini artırmasıdır. Sözügedən strateji xəttin reallaşdırılmasında və beynəlxalq tərəfdaşlıq platformalarının qurulmasında Böyük Britaniya ilə əməkdaşlıq xüsusi çəkiyə malik olmuşdur (Cornell, 2011; Ipek, 2009).

İkitərəfli əlaqələrin rəsmi xronologiyasına nəzər salsaq, Böyük Britaniyanın Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 26-da tanıdığını, diplomatik bağların isə 11 mart 1992-ci ildə rəsmiləşdiyini görmək olar. Bu çərçivədə Bakıda Britaniya missiyası 1993-cü ilin sentyabrında, Azərbaycanın Londondakı səfirliyi isə 1994-cü ilin yanvarında fəaliyyətə başlamışdır (Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024). Lakin bu münasibətlərin hüquqi-prosedur tərəfindən daha çox, onlara real strateji dərinlik qazandıran amil enerji sektorundakı sıx tərəfdaşlıq idi. London administrasiyası Xəzər regionunu Avrasiyanın geoiqtisadi mənzərəsində həlledici və perspektivli bir mərkəz kimi qiymətləndirirdi; öz növbəsində, Bakı həm Qərb investisiyalarına, həm də texnoloji və siyasi himayədarlığa ehtiyac duyurdu. Beləliklə, enerji sektorunda üst-üstə düşən maraqlar zamanla daha genişmiqyaslı iqtisadi-siyasi gündəliyin fundamental bazasını formalaşdırdı (BP, 2026; BP, 2025; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

Mövzunun aktuallığı ondan irəli gəlir ki, Azərbaycanın enerji təhlükəsizliyi strategiyasına dair mövcud tədqiqatlarda əsas diqqət çox vaxt daxili resurs menecmentinə və ya ümumi diplomatik xəttə yönəldilir; bu çərçivədə Böyük Britaniyanın iştirakı isə bəzən yalnız BP-nin fəaliyyəti ilə məhdudlaşdırılaraq dar çərçivədə təqdim olunur. Əslində isə Londonun rolu daha polifunksional xarakter daşıyır: o, ölkəyə daxil olan ilk nəhəng investisiya axınının əsas təminatçısı, enerji layihələrinin qlobal legitimliyini möhkəmləndirən siyasi aktor və müasir enerji keçidi prosesində mühüm texnoloji tərəfdaşdır. Bu baxımdan, ikitərəfli əməkdaşlığı sadəcə korporativ və ya iqtisadi müstəvidə deyil, Azərbaycanın enerji təhlükəsizlik arxitekturasının strateji xarici sütunlarından biri kimi qiymətləndirmək zəruridir.

Tədqiqatın əsas qayəsi, Azərbaycanın enerji təhlükəsizliyi arxitekturasında Böyük Britaniyanın oynadığı rolu mərhələli şəkildə analiz etmək, bu tərəfdaşlığın gətirdiyi iqtisadi-siyasi dividendləri qiymətləndirmək və müasir yaşıl enerji keçidi fonunda qazandığı yeni mahiyyəti üzə çıxarmaqdır. İşin fundamental tezisinə görə, London Azərbaycan üçün sadəcə bir maliyyə donoru deyil, enerji resurslarının milli təhlükəsizlik, suveren xarici siyasət və qlobal geoiqtisadi inteqrasiya vasitəsinə çevrilməsində əsas sistemformalaşdırıcı tərəfdaşlardan biri kimi çıxış etmişdir. Bununla belə, bu münasibətləri tammiqyaslı müttəfiqlik kimi deyil, strateji maraqların kəsişməsinə əsaslanan yüksək dərəcəli praqmatik tərəfdaşlıq modeli kimi xarakterizə etmək daha dəqiq olar (GOV.UK, 2023; GOV.UK, 2025; Townend və b., 2024).

*Enerji təhlükəsizliyi anlayışı və Azərbaycanın müstəqillikdən sonrakı prioritetləri.* Klassik yanaşmada enerji təhlükəsizliyi konsepsiyası, adətən, idxalçı ölkələrin resurslara kəsintisiz və iqtisadi

cəhətdən əlverişli çıxışı kimi xarakterizə olunur. Lakin enerji ixracatçısı olan dövlətlər üçün bu termin daha kompleks və çoxşaxəli bir mahiyyət kəsb edir. Bu kateqoriyadan olan ölkələrdə strateji hədəf resursların suveren nəzarət mexanizmləri ilə idarə olunması, geosiyasi risklərin minimallaşdırılması, nəql marşrutlarının diversifikasiyası və xarici kapitalın səmərəli kombinasiyasından ibarətdir. Azərbaycanın enerji strategiyası məhz bu çoxölçülü modelin bariz nümunəsidir. Müstəqilliyin bərpasından sonra respublika eyni zamanda hərbi-siyasi təzyiqlər, institusional boşluqlar və sistemli iqtisadi böhranla qarşı-qarşıya qalmışdı. Belə bir mürəkkəb geosiyasi şəraitdə karbohidrogen ehtiyatlarının effektiv menecmenti dövlətçiliyin qorunub saxlanılması və milli təhlükəsizlik sisteminin fundamental komponentinə çevrildi (Cornell, 2011).

Məşhur tədqiqatçı Svante Cornell Azərbaycanın dövlət quruculuğu və xarici siyasət kursunu analiz edərkən, karbohidrogen ehtiyatlarının həlledici və katalizator rolunu xüsusi qeyd edir (Cornell, 2011). Onun konsepsiyasına görə, enerji faktoru respublika üçün sadəcə iqtisadi dirçəliş aləti deyil, həm də beynəlxalq münasibətlər sisteminə inteqrasiya, Qərb dövlətləri ilə strateji bağların qurulması və regional geosiyasi balansda üstünlük əldə etmək üçün fundamental resurs mahiyyəti daşımışdır. Bu yanaşmanı tamamlayan Pınar İpek isə Azərbaycanın xarici siyasi xətti ilə enerji təhlükəsizliyi doktrinasının bir-birini qarşılıqlı şəkildə formalaşdırdığını müdafiə edir (Ipek, 2009). Beləliklə, enerji strategiyası xarici siyasətin köməkçi bir sahəsi kimi deyil, onun ümumi arxitekturasını və vektoru müəyyən edən strateji sütun kimi qəbul edilməlidir.

Azərbaycanın strateji maraqları çərçivəsində enerji təhlükəsizliyi konsepsiyası bir-birini tamamlayan bir neçə mühüm hədəf üzərində qurulmuşdu. İlkin olaraq, xarici investisiya axınını təmin etməklə enerji sektorunda texnoloji yenilənməyə və maliyyə modernizasiyasına nail olmaq əsas prioritet idi. Bununla yanaşı, karbohidrogen ehtiyatları dövlət büdcəsinin formalaşmasında, valyuta rezervlərinin artırılmasında və ümumi makroiqtisadi dayanıqlığın təmin edilməsində lokomativ rolunu oynamalı idi. Digər bir mühüm aspekt ixrac marşrutlarının diversifikasiyası vasitəsilə tək tərəfli asılılıqdan qurtulmaq və geosiyasi riskləri minimuma endirmək idi. Nəhayət, irimiqyaslı enerji layihələri Azərbaycanın qlobal arenada siyasi legitimliyini möhkəmləndirməli və ölkəni regional geoiqtisadi arxitekturanın vazkeçilməz aktoru səviyyəsinə qaldırmalı idi. Diqqətçəkən məqam odur ki, qeyd olunan bu dörd fundamental komponentin hər birində Böyük Britaniya ilə strateji tərəfdaşlığın izləri aydın görünür.

Beləliklə, Azərbaycanın enerji təhlükəsizliyi konsepsiyasını sadəcə hasilat həcmi ilə məhdudlaşan texniki-iqtisadi bir göstərici kimi deyil, dövlət suverenliyinin və milli təhlükəsizlik doktrinasının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirmək lazımdır. Məhz bu konseptual baxış bucağı, Böyük Britaniya ilə qurulan münasibətlərin nə üçün ənənəvi diplomatik çərçivələrdən daha dərin və strateji mahiyyət kəsb etdiyini izah edir. London administrasiyası ilə həyata keçirilən sıx əməkdaşlıq platforması, milli resursların qlobal bazarlara çıxışını təmin etməklə bərabər, Azərbaycanın siyasi muxtariyyətini möhkəmləndirmiş və ölkənin uzunmüddətli inkişaf trayektoriyasını daha da dayanıqlı hala gətirmişdir (BP, 2026; Ministry of Energy of the Republic of Azerbaijan, 2025; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

*Böyük Britaniya ilə enerji əməkdaşlığının formalaşması: diplomatik əsaslardan "Əsrin müqaviləsi"nə.* Azərbaycan-Böyük Britaniya münasibətlərinin təşəkkül tapdığı ilkin mərhələ, tərəflərin strateji maraqlarının uzlaşdığı və siyasi legitimlik axtarışlarının ön plana çıxdığı bir dövr kimi səciyyələndirilə bilər. Həmin dövrdə Azərbaycan Qərb dünyası ilə institusional bağlar qurmaq və qlobal iqtisadi sistemə inteqrasiya olunmaq xəttini tutmuşdu. Eyni zamanda, London administrasiyası Xəzər hövzəsinin enerji potensialını erkən dövrlərdən etibarən yaxından izləyir, post-sovet məkanında yaranmış geosiyasi boşluqda özünün dayanıqlı iqtisadi mövqelərini təmin etməyə çalışırdı. Diplomatik əlaqələrin tam rəsmiləşməsindən əvvəl Britaniya korporasiyalarının, xüsusilə də BP-nin Azərbaycana yönələn intensiv marağı, bu strateji xəttin sistemli və məqsədyönlü xarakter daşıdığını sübut edirdi (BP, 2026; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

İkitərəfli iqtisadi münasibətlərin enerji sektorunda keyfiyyətcə yeni müstəviyə keçməsi, 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" yataqları üzrə imzalanmış tarixi pay bölgüsü sazişi ilə rəsmiləşdi. BP-nin rəsmi hesabatlarında da qeyd olunduğu kimi, bu sənəd post-sovet məkanında Qərb mərkəzli transmilli

korporasiyaların həyata keçirdiyi ilk irimiqyaslı investisiya layihəsi idi və dünya tarixinə "Əsrin müqaviləsi" kimi daxil oldu (BP, 2026; BP, 2025). Sözügedən saziş sadəcə bir kommersiya müqaviləsi deyil, Azərbaycanın öz təbii resursları üzərindəki suveren hüquqlarının beynəlxalq maliyyə institutları tərəfindən praktik təsdiqi idi. Bu addım ölkənin qlobal enerji arxitekturasına inteqrasiyasını təmin etməklə yanaşı, xarici siyasət strategiyasında yeni manevr platformaları yaratdı.

"Əsrin müqaviləsi" Azərbaycanın enerji təhlükəsizliyi doktrinasında fundamental dönüş nöqtəsi oldu. Birincisi, bu saziş qlobal investisiya və sığorta bazarlarında Azərbaycanın etibarlı tərəfdaş imicini möhkəmləndirdi. İkincisi, layihə resursların idarə olunmasına beynəlxalq hüquqi legitimlik qazandırmaqla yanaşı, yerli texnoloji potensialı da sürətlə genişləndirdi. Üçüncüsü, bu əməkdaşlıq ölkəni qapalı sovet iqtisadi modelinin qalıqlarından xilas edərək açıq bazar mühitinə və beynəlxalq hüquqi standartlara uyğunlaşdırdı. Nəhayət, bu strateji razılaşmalar sonrakı dövrlərdə icra olunan nəhəng boru kəməri və logistik dəhliz layihələrinin siyasi fundamentini formalaşdırdı (BP, 2025; Ministry of Energy of the Republic of Azerbaijan, 2025).

Bu kontekstdə Böyük Britaniyanın rolu sadəcə korporativ iştirakçılıq hüdudlarını aşır. Britaniya Azərbaycan üçün Qərbin maliyyə və iqtisadi ekosisteminə çıxışı təmin edən strateji körpü rolunu oynamışdır. Enerji layihələri ətrafında birləşən maliyyə qurumları, hüquq firmaları və dövlət institutları Azərbaycanın resurs iqtisadiyyatının qlobal sistemlə sürətli sintezini stimullaşdırdılar. Məhz bu səbəbdən, 1990-cı illərin ortalarından formalaşan London-Bakı əməkdaşlığı müasir enerji diplomatiyasının ən uğurlu örnəklərindən biri hesab edilir. Bu tərəfdaşlığın mərkəzində iqtisadi maraqlar dayansa da, onun strateji nəticələri dövlət suverenliyinin qorunması və regional geosiyasi balansın tənzimlənməsi müstəvisində özünü büruzə verir (Cornell, 2011; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

*BP amili və enerji təhlükəsizliyinin maddi-institusional dayaqları.* Azərbaycanın enerji təhlükəsizliyi arxitekturasında Britaniya faktorunu analiz edərkən BP şirkətinin rolu xüsusi çəkiyə malikdir. Şirkət regionda sadəcə ticari maraqları olan bir aktor deyil, həm də yerli enerji sənayesinin qlobal standartlara uyğunlaşdırılması prosesinin əsas katalizatoru kimi çıxış etmişdir. Kəşfiyyat və hasilatdan tutmuş, texnoloji innovasiyalar və mürəkkəb layihə menecmentinə qədər bütün sahələrdə BP-nin tətbiq etdiyi korporativ mədəniyyət ölkədə yeni fəaliyyət standartlarının yaranmasına təkan verdi. Bu mənada, şirkətin fəaliyyəti sırf maliyyə qoyuluşu hüdudlarını aşaraq, enerji siyasətinin həm maddi, həm də təşkilati sütunlarını möhkəmləndirən bir amilə çevrildi (BP, 2026; BP, 2025).

İnstitusional müstəvidə bu tərəfdaşlıq, uzunmüddətli kapital axını ilə yanaşı, həm də qabaqcıl texnoloji təcrübənin transferini təmin etdi. Xəzərin dərin sulu yataqlarında mürəkkəb əməliyyatların aparılması, risklərin beynəlxalq səviyyədə sığortalanması və qlobal rəqabətədavamlılıq həmin dövrdə yerli imkanların məhdudluğu fonunda məhz Britaniya tərəfdaşlığının struktur əhəmiyyətini artırırdı. Nəticə etibarilə, Azərbaycan öz təbii sərvətlərini sadəcə hasil etməklə kifayətlənmədi, həm də bu resursları beynəlxalq hüquqi və ticari mexanizmlər çərçivəsində səmərəli idarə etmək bacarığına yiyələndi.

BP amilinin yaratdığı digər mühüm effekt isə reputasiya ilə bağlıdır. Şirkətin layihələrdəki iştirakı Azərbaycanın enerji sektorunu qlobal bazarda "etibarlı və perspektivli" bir brend kimi tanıtdı. Bu reputasiya effekti nəinki xarici investisiya axınını sürətləndirdi, həm də ölkənin enerji infrastrukturu layihələrinin beynəlxalq siyasi müstəvidə daha ciddi qəbul olunmasına şərait yaratdı. Çünki xammal bolluğu təkbaşına enerji təhlükəsizliyi yaratmır; onu real siyasi və kommersiya gücünə çevirən məhz belə strateji tərəfdaşlıq formatlarıdır.

Eyni zamanda, kadr hazırlığı və menecment sahəsindəki irəliləyişlər də bu prosesin ayrılmaz hissəsidir. Birgə layihələr çərçivəsində formalaşan mütəxəssis bazası Azərbaycanın enerji sektorunda intellektual kapitalın güclənməsinə xidmət etdi. Beynəlxalq əməliyyat standartlarının, korporativ hesabatlılıq sistemlərinin və risk idarəçiliyi təcrübəsinin yerli ekosistemə inteqrasiyası dövlətin bu sahədəki institusional yetkinliyini artırdı. Beləliklə, enerji təhlükəsizliyi yalnız siyasi qərarların deyil, peşəkar bir idarəetmə sisteminin üzərində bərqərar oldu.

Yekun olaraq qeyd etmək olar ki, Böyük Britaniyanın rolu Azərbaycanın enerji idarəçiliyinin həm texnoloji, həm də nüfuz bazasını fundamental şəkildə möhkəmləndirmişdir. London faktoru

resursların siyasi təhdidlərdən uzaq, sistemli və uzunmüddətli strategiya əsasında istifadəsinə imkan yaratdı. Bu cür möhkəm baza olmasaydı, enerji təhlükəsizliyi anlayışı yalnız nəzəri bir tezis kimi qalardı; praktik təhlükəsizlik isə resursların etibarlı və idarə olunan sistemə transformasiyası sayəsində mümkün oldu (BP, 2026; BP, 2025; GOV.UK, 2022).

*Enerji marşrutları, ixracın şaxələndirilməsi və geoiqtisadi mövqe.* Müasir doktrinalara görə, enerji təhlükəsizliyinin fundamental meyarı yalnız resurs bazasına malik olmaq deyil, həm də həmin resursların qlobal bazarlara çıxışını təmin edən siyasi cəhətdən dayanıqlı və etibarlı ixrac dəhlizlərini formalaşdırmaqdır. Azərbaycan üçün bu prioritet, ölkənin yerləşdiyi mürəkkəb geosiyasi mühit və regiondakı güc mərkəzlərinin maraq toqquşmaları fonunda həyati əhəmiyyət kəsb edirdi. Belə bir konyunkturada ixrac marşrutlarının diversifikasiyası sadəcə iqtisadi səmərəlilik məsələsi deyil, həm də milli təhlükəsizliyin qarantı idi. Bu xüsusda, Böyük Britaniya ilə tərəfdaşlıq mühüm rol oynamışdır; belə ki, Britaniya korporasiyalarının və rəsmi dairələrinin dəstəyi Xəzər enerji layihələrinin beynəlxalq sistemlə inteqrasiyasını əhəmiyyətli dərəcədə sürətləndirdi (BP, 2026; Ministry of Energy of the Republic of Azerbaijan, 2025).

Azərbaycanın çoxvektorlu ixrac strategiyası iki əsas hədəfə yönəlmişdi: bir tərəfdən enerji gəlirlərinin kommersiya davamlılığını və maliyyə sabitliyini təmin etmək, digər tərəfdən isə respublikanın hər hansı bir regional güc mərkəzindən asılılıq riskini minimuma endirmək. Bu kontekstdə, iri enerji layihələrinin arxasında duran beynəlxalq koalisiyalar sadəcə iqtisadi subyektlər deyil, həm də nəql marşrutlarının siyasi immunitetini artıran strateji vasitələr idi. Londonun bu prosesdəki fəal iştirakı Xəzər resurslarının Avropa və dünya bazarlarına çıxarılmasına əlavə siyasi nüfuz və çəkidarlıq qazandırırdı (BP, 2026; Ministry of Energy of the Republic of Azerbaijan, 2025).

Respublikanın enerji təhlükəsizliyi strategiyası ilə onun geoiqtisadi statusu arasında qırılmaz bir bağ mövcuddur. Karbohidrogen ixracı Azərbaycanı yalnız xammal tədarükçüsü kimi deyil, eyni zamanda, regional logistika, nəqliyyat və infrastruktur şəbəkələrinin kilit iştirakçısı kimi ön plana çıxardı. Britaniya kapitalı və korporativ dəstəyi sayəsində Azərbaycan Qafqazdan Qara dənizə və Avropaya qədər uzanan geniş bir geoiqtisadi zəncirin fundamental həlqəsinə çevrildi. Nəticədə, enerji təhlükəsizliyi anlayışı tranzit imkanları, bağlantılılıq və regional stabilliklə vəhdət təşkil etməyə başladı (BP, 2026; Ministry of Energy of the Republic of Azerbaijan, 2025).

Diqqətəlayiq bir məqam da odur ki, Bakı-London enerji əməkdaşlığı ənənəvi mərkəz-periferiya iqtisadi asılılıq modelindən fərqlənir. Azərbaycan burada sadəcə xammal ixrac edən passiv bir tərəf deyil, öz enerji siyasətini dövlət təhlükəsizliyi və xarici siyasi prioritetlərlə sintez edən subyektdir. Böyük Britaniya isə yalnız kommersiya maraqları güdən investor deyil, resursların qlobal dövriyyəsinə hüquqi-institusional imkan yaradan strateji müttəfiqdir. Məhz bu qarşılıqlı asılılıq münasibətlərə geoiqtisadi dərinlik verir (Embassy of the Republic of Azerbaijan to the United Kingdom of Great Britain and Northern Ireland, 2026; Ministry of Energy of the Republic of Azerbaijan, 2025).

Yekun olaraq, ixrac modelinin şaxələndirilməsi Azərbaycanın enerji təhlükəsizlik xəttinin nüvəsini təşkil edir və Britaniya faktoru bu xəttin reallaşmasında katalizator rolunu oynamışdır. Azərbaycan fiziki təhlükəsizliyi marşrutların siyasi dayanıqlığı ilə, iqtisadi mənfəəti isə geosiyasi manevr imkanları ilə birləşdirməyə nail oldu. Britaniya amili bu mürəkkəb sintezin qurulmasında, layihələrin qlobal maliyyə və siyasi ekosistemə bağlanmasında fundamental əhəmiyyət daşıdı (Embassy of the Republic of Azerbaijan to the United Kingdom of Great Britain and Northern Ireland, 2026; GOV.UK, 2022; Ministry of Energy of the Republic of Azerbaijan, 2025).

*Böyük Britaniya investisiyaları və Azərbaycan dövlətçiliyinin iqtisadi dayanıqlığı.* Azərbaycan Xarici İşlər Nazirliyinin statistik göstəricilərinə əsasən, Böyük Britaniya 34 milyard ABŞ dolları həcmindəki birbaşa investisiya portfeli ilə ölkənin ən iri xarici investorudur; bu rəqəm respublikaya yönələn ümumi xarici kapital axınının təxminən yarısını təşkil edir (Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024). Britaniya hökumətinin rəsmi ixrac bələdçilərində də Londonun Azərbaycan iqtisadiyyatında dominant investisiya rolu xüsusi vurğulanır. Bu makroiqtisadi göstəricilər təsdiq edir ki, Britaniyanın iştirakı sadəcə bir neçə korporativ layihə ilə məhdudlaşmır, bütövlükdə ölkənin iqtisadi modernizasiya kursunun strateji vektorlarından birini formalaşdırır.

Xüsusilə enerji sektoruna yönələn bu kapital axını, Azərbaycanın enerji təhlükəsizliyi doktrinasının həm maliyyə, həm də texnoloji sütunlarını möhkəmləndirmişdir (GOV.UK, 2022).

İqtisadi dayanıqlıq faktoru müasir enerji təhlükəsizliyi anlayışının ayrılmaz komponentidir. Enerji sektoru dövlət büdcəsinin formalaşmasında, sosial öhdəliklərin icrasında və strateji infrastruktur quruculuğunda həlledici mənbə rolunu oynadığı üçün bu sahənin stabilliyi birbaşa siyasi sabitliyə təsir göstərir. Britaniya sərmayələrinin strateji və uzunmüddətli xarakter daşıması, Azərbaycan üçün qısamüddətli maliyyə dividendindən daha geniş əhəmiyyət kəsb etmişdir. Sözügedən investisiyalar layihələrin mərhələli inkişafını təmin etməklə yanaşı, risklərin diversifikasiyasına və enerji sənayesinin qlobal bazar dalğalanmalarına qarşı immunitetinin artırılmasına yardımçı olmuşdur (GOV.UK, 2022).

Londonun investisiya rolunu həm də siyasi iqtisadiyyat kontekstində qiymətləndirmək zəruridir. Təbii resurslarla zəngin dövlətlər üçün əsas risklərdən biri gəlirlərin sadəcə rentaya çevrilərək institusional inkişafı ləngitməsidir. Lakin Azərbaycan nümunəsində Britaniya ilə qurulan enerji tərəfdaşlığı həm də institusional təcrübənin mənimsənilməsi, müasir idarəçilik standartlarının tətbiqi və strateji planlaşdırma vərdişlərinin formalaşması üçün münbit zəmin yaratmışdır. Bu prosesi mütləqləşdirmək doğru olmasa da, Böyük Britaniya ilə əməkdaşlıq Azərbaycanın qlobal iqtisadi münasibətlər sisteminə inteqrasiyasını sürətləndirərək onu beynəlxalq normativ və ticari mühitin fəal hissəsinə çevirmişdir (GOV.UK, 2022).

Kapital axınının digər bir mühüm nəticəsi geniş biznes ekosisteminin yaranmasıdır. Rəsmi məlumatlar Azərbaycanda yüzlərlə Britaniya mənşəli şirkətin fəaliyyət göstərdiyini təsdiqləyir (GOV.UK, 2022; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024). Bu şirkətlərin böyük əksəriyyəti hasilatla birbaşa məşğul olmasa da, xidmət, hüquqi dəstək, innovativ texnologiyalar, logistika və mühəndislik sahələri vasitəsilə enerji sənayesi ətrafında nəhəng bir iqtisadi zəncir formalaşdırıblar. Bu reallıq enerji təhlükəsizliyinin artıq daha geniş bir anlayışa – iqtisadi təhlükəsizlik müstəvisinə keçdiyini sübut edir. Beləliklə, enerji sektoru sadəcə hasilat obyektlərindən ibarət deyil, çoxşaxəli xidmət və menecment ekosistemini özündə birləşdirən kompleks sənaye strukturudur.

Nəticə etibarilə, Britaniya sərmayələri Azərbaycan üçün sadəcə bir maliyyə resursu deyil, enerji sektorunun stabil funksionallığını, gəlirlərin proqnozlaşdırıla bilənliyini və beynəlxalq iqtisadi əlaqələrin dərinləşməsini təmin edən fundamental faktora çevrilmişdir. Bu amil dövlətin ümumi təhlükəsizlik strategiyasına birbaşa təsir edərək, enerji faktorunu milli tərəqqi strategiyasının mərkəzi nüvəsinə çevirmişdir (Cornell, 2011; GOV.UK, 2022; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

*İnstitusional mexanizmlər və strateji dialoq: enerji əməkdaşlığından siyasətin genişlənməsinə.* Enerji sektorunda təşəkkül tapmış əməkdaşlığın dayanıqlılığını təmin etmək üçün təkcə kommersiya yönümlü sazişlər kafi deyil. Uzunmüddətli strateji tərəfdaşlıq mütləq şəkildə siyasi koordinasiya, institusional kommunikasiya və potensial risklərin idarə edilməsi mexanizmlərini tələb edir. Azərbaycan-Böyük Britaniya münasibətlərində bu cür institusional dərinləşmə meyilləri xüsusilə 2010-cu illərin ikinci yarısından etibarən daha qabarıq xarakter almağa başlamışdır. Bu kontekstdə, 2015-ci ildə Hökumətlərarası Birgə Komissiyanın təsis edilməsi və bir il sonra strateji dialoq formatının rəsmiləşməsi ikitərəfli əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunun bariz göstəricisidir (GOV.UK, 2023; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

Sözügedən institusional platformaların yaradılması enerji təhlükəsizliyi doktrinasına iki fundamental istiqamətdə təsir göstərmişdir. İlk növbədə, enerji sahəsindəki tərəfdaşlıq sırf texnoloji və iqtisadi müstəvidən çıxaraq yüksək səviyyəli hökumətlərarası gündəliyin nüvəsinə çevrilmişdir. Digər tərəfdən, enerji sektoruna dair risklər, investisiya perspektivləri və müasir keçid strategiyaları artıq daha geniş milli təhlükəsizlik və makroiqtisadi kontekstdə müzakirə mövzusuna çevrilmişdir. Beləliklə, enerji diplomatiyası sadəcə korporativ maraqlar səviyyəsində deyil, dövlətlərarası rəsmi və strukturlaşmış dialoq çərçivəsində institutlaşmışdır (GOV.UK, 2023; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

2023-cü ildə Londonda reallaşan 5-ci Strateji Dialoq raundu bu münasibətlərin şaxələnmə vektorlarını aydın şəkildə nümayiş etdirir. Həmin platformada təhlükəsizlik arxitekturası, ticarət dövriyyəsi, yaşıl enerji keçidi, habelə kibertəhlükəsizlik və hibrid təhdidlərə qarşı dözümlülük kimi məsələlərin prioritetləşdirilməsi göstərir ki, enerji faktoru artıq daha geniş bir "dövlət dayanıqlığı" konsepsiyasının tərkib hissəsi kimi qəbul edilir. Başqa sözlə, enerji təhlükəsizliyi müasir dövrdə yalnız hasilat və ixracın stabilliyi ilə məhdudlaşmır; o, həm də rəqəmsal ekosistemin qorunması, infrastrukturun fiziki mühafizəsi və regional sabitliklə vəhdət təşkil edir (GOV.UK, 2023).

Eyni zamanda, bu institusional dərinləşmə prosesi tərəflər arasındakı bəzi normativ fərqlilikləri də gündəmə gətirir. Britaniya tərəfinin dialoq çərçivəsində bəzən idarəçilik standartları və insan hüquqları mövzularına toxunması, münasibətlərin yalnız iqtisadi rasionallıq üzərində qurulmadığını, həm də müəyyən normativ gərginliklərin mövcudluğunu göstərir (GOV.UK, 2023; Townend və b., 2024). Lakin bu faktorlar strateji əməkdaşlığın ümumi axınına mane olmur; çünki enerji təhlükəsizliyi, qlobal ticarət və regional təhlükəsizlik kimi ali maraqlar tərəfləri praqmatik müstəvidə birləşdirir. Bu vəziyyət Bakı-London münasibətlərinin nə üçün "selektiv strateji tərəfdaşlıq" modeli kimi xarakterizə edildiyini əsaslandırır.

Yekun olaraq qeyd etmək olar ki, formalaşmış institusional mexanizmlər Böyük Britaniyanın Azərbaycanın enerji strategiyasındakı rolunu daha kəskin və sistemli bir müstəviyə daşımışdır. Əməkdaşlıq artıq fərdi korporativ layihələrin cəmindən ibarət deyil, strateji dialoq vasitəsilə möhkəmlənmiş siyasi bir çərçivəyə malikdir. Bu isə enerji təhlükəsizliyi siyasətinin daha proqnozlaşdırıla bilən, çoxşaxəli və müasir çağırışlara uyğun çevikliklə idarə olunmasına zəmin yaradır (GOV.UK, 2023; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

*2020-ci illərdə yeni geosiyasi mərhələ: regional dəyişikliklər, bağlantılılıq və enerji təhlükəsizliyi.* 2020-ci illərin gətirdiyi qlobal və regional transformasiyalar, Böyük Britaniyanın Azərbaycanın enerji təhlükəsizliyi strategiyasındakı roluna yeni mahiyyət qazandırmışdır. Xüsusilə Ukrayna ətrafındakı hərbi-siyasi böhran Avropanın enerji təhlükəsizliyi arxitekturasını kökündən sarsıtmaqla, Cənubi Qafqazın geoiqtisadi çəkisini əhəmiyyətli dərəcədə artırmışdır. LSE IDEAS-ın 2025-ci il hesabatında vurğulandığı kimi, bu yeni konyunktura regional güc balansını yenidən formalaşdıraraq, Azərbaycanın xarici siyasi kursunda manevr qabiliyyətini gücləndirmişdir (Giuashvili, 2025). Belə bir mürəkkəb şəraitdə Bakı sadəcə enerji tədarükçüsü deyil, həm də regional koordinasiya və bağlantılılıq (connectivity) mərkəzi kimi strateji tərəfdaş qismində qəbul edilməkdədir.

Bu yeni epoxada enerji təhlükəsizliyi ilə logistik-nəqliyyat təhlükəsizliyi arasındakı sərhədlər demək olar ki, aradan qalxmışdır. 2024-cü ildə qüvvəyə minmiş UK-Azerbaijan beynəlxalq avtomobil nəqliyyatı sazişi bu inteqrasiyanın simvolik təsdiqidir (Foreign, Commonwealth & Development Office, 2024). Hərçənd bu sənəd ilk baxışda enerji sektoru ilə birbaşa əlaqəli görünməyə bilər, lakin müasir dövrdə regional bağlantılılıq və geoiqtisadi koordinasiya enerji təhlükəsizliyinin ayrılmaz komponentləridir. Çünki enerji infrastrukturlarının davamlılığı digər ticarət və nəqliyyat şəbəkələrindən təcrid olunmuş şəkildə təsəvvür edilə bilməz.

2025-ci ildə Londonun Bakı ilə əlaqələrini "Strateji Tərəfdaşlıq" (Strategic Partnership) səviyyəsinə yüksəltməsi, Britaniyanın bu əməkdaşlığı yalnız kommersiya layihəsi kimi deyil, genişmiqyaslı regional tərəfdaşlıq kimi dəyərləndirdiyini göstərir (GOV.UK, 2025). Bu status dəyişikliyi Böyük Britaniyanın Azərbaycanın enerji diplomatiyasındakı roluna əlavə siyasi nüfuz qazandırır. Lakin qeyd edilməlidir ki, bu termin klassik hərbi müttəfiqlikdən daha çox, enerji, ticarət və təhlükəsizlik kimi prioritet sahələrdə maraqların institusional uzlaşmasını ifadə edir.

Müasir geosiyasi mərhələnin ən mühüm özəlliyi Azərbaycanın beynəlxalq münasibətlərdə artıq fəal subyekt kimi çıxış etməsidir. Əgər 1990-cı illərin əsas prioriteti xarici investisiya cəlb etmək idisə, 2020-ci illərdə Azərbaycan regionun enerji və nəqliyyat gündəliyini müəyyən edən əsas aktorlardan birinə çevrilmişdir. Britaniya ilə tərəfdaşlıq da bu təkamülə uyğun olaraq dəyişir: hazırda bu əlaqələr təkcə ölkənin resurs potensialına deyil, həm də onun regional sabitlik və tranzit qabiliyyətinə söykənir (Foreign, Commonwealth & Development Office, 2024; Giuashvili, 2025; GOV.UK, 2025).

Beləliklə, 2020-ci illər Böyük Britaniyanın Azərbaycanın enerji təhlükəsizliyindəki rolunun ənənəvi çərçivələri aşdığını sübut edir. Bu rol artıq geoiqtisadi sintez, nəqliyyat dəhlizləri və Avropanın yeni enerji reallıqları ilə tamamlanır. Nəticədə əməkdaşlığın strateji məzmunu dərinləşsə də, onun praqmatik və selektiv xarakteri qorunub saxlanılır (Foreign, Commonwealth & Development Office, 2024; Giuashvili, 2025; GOV.UK, 2025).

*COP29, yaşıl keçid və Böyük Britaniyanın yeni rolu.* Müasir geosiyasi reallıqlar fonunda Azərbaycanın enerji təhlükəsizliyi doktrinasını yalnız karbohidrogen resurslarının hasilatı prizmasından dəyərləndirmək artıq kafi deyil. Qlobal miqyasda iqlim gündəliyinin prioritetləşməsi və dekarbonizasiya prosesləri enerji təhlükəsizliyi paradiqmasını əsaslı şəkildə transformasiya edir. Hazırda dövlətlərin strateji dayanıqlığı həm də innovativ texnologiyalara çıxış, bərpa olunan enerji potensialının mənimsənilməsi və iqtisadiyyatın karbon intensivliyinin minimuma endirilməsi ilə ölçülür. Bu müstəvidə, Böyük Britaniyanın Azərbaycanın enerji strategiyasındakı rolu mahiyyətcə yeni və daha kompleks bir mərhələyə qədəm qoyur (BP, 2025; Townend və b., 2024).

Bakının ev sahibliyi etdiyi COP29 sammiti Azərbaycanın qlobal iqlim diplomatiyasındakı çəkisini əhəmiyyətli dərəcədə artırmışdır. Britaniyanın Baş naziri Keir Starmerin 2024-cü ildə Bakıdakı rəsmi iştirakı və bəyanatları, Londonun bu istiqamətdəki siyasi maraqlarının bariz təzahürüdür (GOV.UK, 2024). Lakin bu tendensiyanı sadəcə diplomatik ritorika kimi xarakterizə etmək səthi yanaşma olardı. Belə ki, "yaşıl keçid" enerji təhlükəsizliyi arxitekturasına birbaşa təsir göstərir; qlobal investisiya axınları və texnoloji tərəfdaşlıqlar artıq məhz aşağıkarbonlu layihələr ətrafında konsolidasiya olunur. Azərbaycan üçün bu texnoloji sıçrayışın uğuru Britaniya mənşəli korporasiyaların və dövlət institutlarının fəal dəstəyindən birbaşa asılıdır.

Xüsusilə BP-nin 2025-ci il üçün anons etdiyi "Şəfəq" günəş layihəsi və Səngəçal terminalının elektrikləşdirilməsi təşəbbüsləri Britaniya tərəfdaşlığının yalnız neft-qaz sənayesi ilə məhdudlaşmadığını sübut edir (BP, 2025). Bu layihələrin strateji əhəmiyyəti ikiqatdır: onlar həm Azərbaycanın enerji sektorunda rəqəmsal və ekoloji modernizasiyanı sürətləndirir, həm də Londonun Bakı ilə münasibətlərində "enerji keçidi tərəfdaşı" statusunu rəsmi şəkildə möhkəmləndirir.

Buna rəğmən, ekoloji transformasiya yolunda müəyyən konseptual ziddiyyətlərin mövcudluğu da danılmazdır. Chatham House-un COP29 ərəfəsindəki analizlərinə görə, Azərbaycanın iqtisadi strukturunun hələ də fosil yanacaq gəlirlərinə söykənməsi onun iqlim liderliyi ambisiyaları üçün müəyyən çağırışlar yaradır (Townend və b., 2024). Bu paradoks Britaniya ilə əlaqələrdə də özünü göstərir: London bir tərəfdən qlobal ekoloji standartların əsas təbliğatçısıdır, digər tərəfdən isə Britaniya kapitalı onilliklər boyu Azərbaycanın ənənəvi enerji sektorunun onurğa sütununu təşkil etmişdir. Odur ki, tərəflərin qarşısında duran fundamental vəzifə mövcud əməkdaşlığı ləğv etmək deyil, onu yeni normativ və texnoloji reallıqlara adaptasiya etməkdir.

Məhz bu nöqtədə Böyük Britaniya faktoru xüsusi əhəmiyyət kəsb edir. London Azərbaycan üçün sadəcə investor deyil, həm də iqlim diplomatiyasında strateji həmsöhbət və normativ istinad mərkəzi kimi çıxış edir. Əgər 1990-cı illərdə Britaniya amili enerji təhlükəsizliyinin ilkin institusional bünövrəsini qoymuşdusa, müasir mərhələdə bu amil enerji təhlükəsizliyinin aşağıkarbonlu və şaxələndirilmiş modelinə keçid üçün əsas katalizator rolunu oynayır (BP, 2025; GOV.UK, 2024; Townend və b., 2024).

*Tərəfdaşlığın hüdudları: selektiv strateji xarakter, normativ fərqlər və struktur məhdudiyyətlər.* Azərbaycanın enerji təhlükəsizliyi arxitekturasında Böyük Britaniyanın rolu fundamental xarakter daşısa da, bu tərəfdaşlığı qeyd-şərtsiz bir strateji ittifaq kimi səciyyələndirmək elmi metodologiya baxımından qüsurlu olardı. İkitərəfli münasibətlərdə qarşılıqlı maraqların kəsişmə nöqtələri olduqca güclüdür, lakin bu dinamika bütün dövlətlərarası müstəviləri eyni dərəcədə əhatə etmir. Əməkdaşlıq xəttinin əsas ağırlıq mərkəzini enerji diplomatiyası, iri həcmli investisiya axınları, xarici ticarət, regional bağlantılılıq (connectivity) və spesifik təhlükəsizlik parametrləri təşkil edir. Bunun əksinə olaraq, normativ gündəlik, idarəçilik standartları, insan hüquqları və bəzi regional geosiyasi yanaşmalarda tərəflərin mövqeləri arasında tam simmetriya müşahidə olunmur (GOV.UK, 2023; Townend və b., 2024).

Mövcud reallığı ən dəqiq ifadə edən konsept "selektiv strateji tərəfdaşlıq" modelidir. Bu model çərçivəsində tərəflər dərin və uzunmüddətli əlaqələr qursa da, münasibətlər ümumi ideoloji platforma və ya hərtərəfli siyasi inteqrasiya üzərində bərqərar olmur. Əksinə, tərəfdaşlıq konkret sektorlar üzrə qarşılıqlı dividend prinsipinə söykənir və həmin sahələrin hüdudlarından kənarda məhdud xarakter daşıyır. Bakı-London münasibətlərinə bu prizmadan yanaşdıqda, enerji təhlükəsizliyi əsas birləşdirici sütun rolunda çıxış edir. Enerji sektoru ətrafında formalaşan iqtisadi və siyasi asılılıq münasibətlərə yüksək dayanıqlılıq qazandırsa da, onları tammiqyaslı hərbi-siyasi müttəfiqlik mərhələsinə daşımır (BP, 2025; GOV.UK, 2024; Townend və b., 2024).

Bu məhdudiyyətlərin bir hissəsi tərəflərin beynəlxalq sistemdəki fərqli statuslarından irəli gələn struktur xüsusiyyətlərlə bağlıdır. Böyük Britaniya qlobal və Avro-Atlantik sistemin aparıcı gücü, Azərbaycan isə öz regionunda yüksələn, lakin özünəməxsus prioritetləri olan orta gücdür (middle power). Tərəflərin xarici siyasi üfüqləri, təhlükəsizlik arxitekturasına baxış bucaqları və normativ dəyərləndirmələri hər zaman üst-üstə düşmür. Bundan əlavə, enerji bazarlarındakı konyunktura dəyişiklikləri, "yaşıl keçid" tempinin sürətlənməsi və qlobal kapitalın vektor dəyişməsi gələcəkdə bu tərəfdaşlığın iqtisadi bazisini yenidən müəyyənləşdirə bilər (Foreign, Commonwealth & Development Office, 2024; GOV.UK, 2023; GOV.UK, 2025). Lakin vurğulanmalıdır ki, əməkdaşlığın selektiv təbiəti onun zəifliyi deyil, bəzi hallarda çeviklik və davamlılıq mənbəyidir. Çünki belə bir model ideoloji maksimalizmə deyil, real maraqların rasional hesablanmasına söykənir. London üçün Azərbaycan Avrasiya enerji dəhlizi, logistika və regional stabillik gündəliyində vazkeçilməz subyektdir. Bakı üçün isə Böyük Britaniya qlobal maliyyə bazarlarına çıxış, enerji texnologiyaları, siyasi legitimlik və yaşıl enerji transformasiyası baxımından əvəzedilməz tərəfdaşdır. Beləliklə, münasibətlərin dayanıqlığı məhz bu praqmatik fundament üzərində möhkəmlənir (BP, 2026; BP, 2025; Republic of Azerbaijan Ministry of Foreign Affairs, 2024).

Tərəfdaşlığın gələcək perspektivləri də məhz onun bu selektiv mahiyyəti ilə şərtlənir. Əgər enerji keçidi dövründə qarşılıqlı maraqlar yeni sahələrə – bərpa olunan enerji, aşağıkarbonlu texnologiyalar, rəqəmsal infrastruktur və dəniz logistikasına uğurla transfer edilərsə, münasibətlər daha dərin strateji çalar qazana bilər. Əks təqdirdə, əməkdaşlıq əsasən "neft-qaz dövrünün mirası" səviyyəsində qalacaqdır. Odur ki, Böyük Britaniyanın Azərbaycanın enerji siyasətindəki rolu həm tarixi varislik baxımından əhəmiyyətli, həm də gələcək transformasiya potensialı baxımından həlledicidir (BP, 2025; GOV.UK, 2023; GOV.UK, 2025; Townend və b., 2024).

## Nəticə

Ümumiləşdirilmiş elmi qənaət kimi qeyd etmək olar ki, Böyük Britaniya Azərbaycanın enerji təhlükəsizliyi arxitekturasında sadəcə irimiqyaslı kapital qoyuluşu edən investor deyil, bu strategiyanın formalaşma və təkamül trayektoriyasına birbaşa təsir göstərən fundamental struktur amili kimi çıxış etmişdir. 1990-cı illərin əvvəllərindəki ilkin diplomatik təmaslardan başlayan bu əlaqələr, qısa zaman kəsiyində dərin geoiqtisadi tərəfdaşlığa transformasiya olunmuşdur; xüsusilə 1994-cü il sazişi və BP-nin fəaliyyəti bu prosesin institusional sütunlarını bərqərar etmişdir. Sözügedən əməkdaşlıq platforması milli resursların dünya bazarlarına inteqrasiyasını, yüksək texnologiyaların transferini və ölkənin enerji sektorunda sistemli modernləşməni təmin edən hərəkətverici qüvvəyə çevrilmişdir. Bununla belə, Britaniya faktorunun əhəmiyyəti sırf iqtisadi göstəricilər və kommersiya mənfəəti ilə məhdudlaşmır. Londonun dəstəyi Azərbaycanın xarici siyasi manevr imkanlarını genişləndirmiş, nəhəng enerji layihələrinə qlobal hüquqi-siyasi legitimlik qazandırmış və ixrac marşrutlarının diversifikasiyasına strateji zəmin yaratmışdır. Xüsusilə strateji dialoq mexanizmlərinin rəsmiləşməsi və 2020-ci illərin yeni geosiyasi reallıqları fonunda əməkdaşlığın bağlantılılıq (connectivity) və iqlim diplomatiyası ilə vəhdət təşkil etməsi, tərəfdaşlığın keyfiyyətcə yeni bir mərhələyə yüksəldiyini təsdiqləyir.

Müasir dövrün çağırışları fonunda Böyük Britaniyanın rolu aşağıkarbonlu transformasiya və "yaşıl keçid" paradiqması daxilində yenidən formalaşır. BP-nin innovativ layihələri və COP29 kontekstində aktuallaşan iqlim gündəliyi göstərir ki, Bakı-London tərəfdaşlığı ənənəvi karbohidrogen dövrünün hüdudlarını aşmağa hədəflənib. Lakin bu münasibətlər hələ də klassik strateji ittifaqdan

ziyada, enerji, investisiya və regional təhlükəsizlik sahələrində maraqların uzlaşmasına söykənən "selektiv strateji tərəfdaşlıq" modelinə daha yaxındır.

Nəticə etibarilə, Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin uğurlu inkişaf dinamikasını dərk etmək üçün Böyük Britaniya faktorunu sadəcə xarici maliyyə mənbəyi kimi deyil, ölkənin siyasi, institusional və geoiqtisadi çevrilməsinin fundamental komponenti kimi qiymətləndirmək elmi baxımdan ən doğru və əsaslı yanaşmadır.

### Ədəbiyyat

1. BP. (2025, 2 iyun). *Shafag solar plant and Sangachal terminal electrification projects sanctioned.* BP. https://www.bp.com/en_az/azerbaijan/home/news/press-releases/Shafag-solar-plant-and-Sangachal-terminal-electrification-projects-sanctioned.html
2. BP. (2026, 6 aprel). *BP in Azerbaijan.* BP. https://www.bp.com/en_az/azerbaijan/home/who-we-are/bp-in-azerbaijan.html
3. BP. (2025). *History of ACG.* BP. https://www.bp.com/en_az/azerbaijan/home/who-we-are/operationsprojects/acg2/History-of-ACG.html
4. Cornell, S. E. (2011). *Azerbaijan Since Independence.* Routledge.
5. Embassy of the Republic of Azerbaijan to the United Kingdom of Great Britain and Northern Ireland. (2026). *Azerbaijan - Great Britain.* Embassy of the Republic of Azerbaijan to the United Kingdom of Great Britain and Northern Ireland. https://london.mfa.gov.az/en/category/azerbaijan-great-britain
6. Foreign, Commonwealth & Development Office. (2024, 18 iyul). *UK/Azerbaijan: Agreement on International Road Transport [TS No.49/2024].* GOV.UK. https://www.gov.uk/government/publications/ukazerbaijan-agreement-on-international-road-transport-ts-no492024
7. Giuashvili, T. (2025). *The Changing Face of the South Caucasus.* LSE IDEAS. https://www.lse.ac.uk/ideas/publications/Strategic-Updates/The-Changing-Face-of-the-South-Caucasus
8. GOV.UK. (2023, 21 iyun). *5th UK-Azerbaijan Strategic Dialogue.* GOV.UK. https://www.gov.uk/government/news/5th-uk-azerbaijan-strategic-dialogue
9. Prime Minister's Office, 10 Downing Street. (2024, 12 noyabr). *PM remarks at COP29: 12 November 2024.* GOV.UK. https://www.gov.uk/government/speeches/pm-remarks-at-cop29-12-november-2024
10. British Embassy Baku. (2025, 12 sentyabr). *UK Minister visits Baku to advance UK-Azerbaijan partnership.* GOV.UK. https://www.gov.uk/government/news/uk-minister-visits-baku-to-advance-uk-azerbaijan-partnership
11. GOV.UK. (2022, 13 oktyabr). *Doing business in Azerbaijan: Azerbaijan trade and export guide.* GOV.UK. https://www.gov.uk/government/publications/exporting-to-azerbaijan/exporting-to-azerbaijan
12. Ipek, P. (2009). Azerbaijan's Foreign Policy and Challenges for Energy Security. *The Middle East Journal, 63*(2), 227–239.
13. Ministry of Energy of the Republic of Azerbaijan. (2025, 20 oktyabr). *Contract of the Century.* Ministry of Energy of the Republic of Azerbaijan. https://minenergy.gov.az/en/neft/esrin-muqavilesi
14. Republic of Azerbaijan Ministry of Foreign Affairs. (2024). *The United Kingdom.* Republic of Azerbaijan Ministry of Foreign Affairs. https://mfa.gov.az/en/category/europe/boyuk-britaniya
15. Townend, R., Broers, L., və b. (2024). *Azerbaijan's Climate Leadership Challenge: What's at Stake at COP29 and Beyond.* Chatham House. https://www.chathamhouse.org/2024/10/azerbaijans-climate-leadership-challenge

Daxil oldu: 05.01.2026
Qəbul edildi: 11.04.2026